UOT 94

**Nurdan Əsədova,**
*BDU-nun Tarix fakültəsinin doktorantı*
*nurdan.asadova@gmail.com*
*ORCID iD: 0000-0003-2952-4863*
**https://doi.org/10.59849/2709-5096.2024.1.59**

# ABŞ-NİN CƏNUBİ QAFQAZ SİYASƏTİ VƏ TÜRKİYƏ CÜMHURİYYƏTİ (2009-2020)

**Annotasiya**

*Məqalədə 2009-2020-ci illər ərzində ABŞ-nin Cənubi Qafqaz ölkələri (Azərbaycan, Gürcüstan və Ermənistan) ilə münasibətləri və ABŞ-nin Cənubi Qafqaz siyasətində Türkiyənin yeri və rolu tədqiq olunmuşdur. Eyni zamanda, mövcud rəsmi sənədlər, elmi ədəbiyyatlar və statistik materiallar əsasında ABŞ-nin Cənubi Qafqaz siyasəti kontekstində ABŞ və Türkiyə əməkdaşlığı, iki dövlət arasında bəzi dövrlərdə yaranmış fikir ayrılıqları xronoloji ardıcıllıqla qeyd edilmişdir. Bundan əlavə, ABŞ-də Barak Hüseyn Obama (2009-2017) və Donald Con Tramp (2017-2021) administrasiyaları dövründə Türkiyə Cümhuriyyəti ilə müxtəlif vaxtlarda Cənubi Qafqazda sülhün, sabitliyin, təhlükəsizliyin və s. təmin edilməsinə dair görüşlər keçirilmişdir. ABŞ və Türkiyənin Cənubi Qafqazda sülhün və sabitliyin təmin edilməsinə dair keçirdikləri belə vacib görüşlərdən biri 2009-cu ilin sentyabr ayında olmuşdur. Bu görüşün nəticəsi olaraq isə ABŞ Dövlət katibi H.Klinton və Türkiyənin xarici işlər naziri Ə.Babacan birgə bəyanat qəbul etmişdilər.*

*Qeyd edək ki, Cənubi Qafqaz geosiyasi, strateji əhəmiyyətinə və malik olduğu zəngin enerji ehtiyatlarına görə dünyanın çox mühüm, eyni zamanda ən mürəkkəb bölgələrindən biridir. Cənubi Qafqaz bölgəsinin əhəmiyyətli strateji coğrafi mövqeyə malik olması onu Şimal-Cənub və Şərq-Qərb dəhlizinə çevirmişdir. Bundan əlavə, Cənubi Qafqaz bölgəsi hər zaman böyük dövlətlərin diqqət mərkəzində olmuşdur.*

*Mövzu tədqiq olunarkən isə hadisə və faktların müqayisəli təhlilinə, ümumiləşdirmələrə, elmi obyektivliyə, habelə məlumatların öyrənilməsində kompleksli yanaşma prinsipinə əsaslanmış, eyni zamanda İkinci Qarabağ müharibəsi dövründə ABŞ və Türkiyənin mövqeyindən də bəhs olunmuşdur.*

***Açar sözlər:*** *ABŞ, Cənubi Qafqaz, Türkiyə, İkinci Qarabağ müharibəsi, əməkdaşlıq, ziddiyyətlər*

**Nurdan Asadova**

# U.S. SOUTH CAUCASUS POLICY AND THE REPUBLIC OF TÜRKİYE (2009-2020)

**Annotation**

*The article examines the relations of the U.S. with the countries of the South Caucasus (Azerbaijan, Georgia, and Armenia) from 2009 to 2020 and the place and role of Türkiye in the South Caucasus policy of the United States. Simultaneously, based on existing official documents, scientific literature, and statistical materials, U.S.-Türkiye cooperation in the context of the South Caucasus policy, and differences of opinion between the two states that arose in some periods were noted in chronological order. It should be pointed out that, various meetings were held between the U.S. and Türkiye about peace, stability, security, etc. in the South Caucasus during the administrations of Barack Hussein Obama (2009-2017) and Donald John Trump (2017-2021). One of such significant meetings held by the U.S. and Türkiye on ensuring peace and stability in the South Caucasus was held in September 2009. As a result of this meeting, U.S. Secretary of State H.Clinton and Turkish Foreign Minister A.Babacan adopted a joint statement.*

*It should be noted that the South Caucasus is one of the main and at the same time the most complex regions of the world due to its geopolitical and strategic importance and rich energy resources. The fact that the South Caucasus region has a necessary strategic geographical position has turned it into a North-South and East-West corridor. In addition, the South Caucasus region has always been the focus of great powers.*

*The research on this topic was conducted by analyzing events and facts comparatively, applying scientific objectivity, and following a comprehensive approach to studying data, moreover, the article discusses the role of both the U.S. and Türkiye during the Second Karabakh War.*

***Keywords:*** *U.S., South Caucasus, Türkiye, the Second Karabakh War, cooperation, contradictions*

## Giriş

ABŞ-nin xarici siyasətində Cənubi Qafqaz bölgəsi geosiyasi və geostrateji əhəmiyyətinə görə daim özünəməxsus yer tutmuşdur. Xüsusilə, Soyuq müharibənin başa çatmasından sonra regionun əsas mübarizə mərkəzlərindən birinə çevrilməsi ilə ABŞ-nin xarici siyasətində Cənubi Qafqaz ölkələri ilə münasibətlər prioritet istiqamətə çevrilmişdir [1, s.50]. Ümumiyyətlə, SSRİ-nin dağılmasında sonra Cənubi Qafqaz bölgəsi ABŞ, Türkiyə, Rusiya və b. ölkələrin maraq dairəsinə çevrilmişdir. Məhz bu dövrdən başlayaraq Cənubi Qafqaz ABŞ-nin Xəzər regionunda enerji siyasətinin həyata keçirilməsində əsas rol oynamağa başlamışdır [2, s.5].

Barak Obama (2009-2017) və Donald Tramp (2017-2021) administrasiyaları dövründə də ABŞ-nin xarici siyasət strategiyasında Cənubi Qafqaz regionu xüsusi yer tutmuşdur. Bütün bunlara baxmayaraq, B.Obamanın prezidentliyi dövründə Cənubi Qafqaz siyasəti ən mübahisəli məsələlərdən biri olmuşdur. Qeyd edək ki, bir çox ABŞ ekspertlərinin fikrincə, B.Obama administrasiyası dövründə geosiyasi və strateji cəhətdən mühüm əhəmiyyət kəsb edən Cənubi Qafqaz regionuna ABŞ tərəfindən layiq olduğu diqqət verilməmişdir. B.Obama administrasiyasından fərqli olaraq D.Tramp administrasiyası dövründə isə region ölkələri ilə iqtisadi, siyasi, enerji və s. sahələrdə əməkdaşlığa xüsusi önəm verilmişdir [3, p.94].

Həm əvvəlki dövrlərdə, həm də bəhs etdiyimiz dövr çərçivəsində ABŞ-nin Cənubi Qafqaz siyasətində Türkiyə Cümhuriyyəti mühüm yer tutmuş və regionda həyata keçirdiyi strategiyada Türkiyənin imkanlarından da geniş istifadə etmişdir.

**ABŞ-Azərbaycan münasibətləri və Türkiyə Cümhuriyyəti**

İlk olaraq qeyd etməyimiz lazımdır ki, ABŞ və Azərbaycan arasında diplomatik əlaqələr 1992-ci ildə yaranmışdır. Bəhs etdiyimiz dövrdə ABŞ-Azərbaycan münasibətlərində, əsasən, iqtisadi əlaqələr xüsusi önəm daşımışdır. Həmçinin, ABŞ Azərbaycanın enerji resurslarını inkişaf etdirməsini və Qərb bazarlarına ixrac edilməsini dəstəkləmişdir [4].

ABŞ-Azərbaycan münasibətlərində Türkiyənin hər zaman özünəməxsus rolu olmuşdur. Müxtəlif vaxtlarda ABŞ-Türkiyə-Azərbaycan strateji əməkdaşlığı ön plana çıxmışdır. Bu əməkdaşlıq daha çox regionda enerji tərəfdaşlığını nəzərdə tutmuşdur. ABŞ, Azərbaycan və Türkiyə arasında üçtərəfli əlaqələrin inkişaf etdirilməsini, strateji tərəfdaşlığı nəzərdə tutan ən mühüm konfranslardan biri 2007-ci ilin 10 dekabr tarixində Vaşinqtonda keçirilmişdir. "Azərbaycan-Türkiyə-ABŞ əlaqələri və onun Avrasiya üçün əhəmiyyəti" ("The Azerbaijan-Turkey-U.S. relations and its importance for Eurasia") adlı bu beynəlxalq konfransda çıxış edən ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Daniel Frid üç ölkənin birlikdə əməkdaşlığı nəticəsində yalnız Cənubi Qafqaz regionunda deyil, Xəzərin o tayında da mühüm rol oynaya biləcəklərini bildirmişdir [5].

2008-ci ildə ABŞ-də keçirilən prezident seçkilərində Barak Hüseyn Obama qələbə qazanmış və ABŞ-nin 44-cü prezidenti olmuşdur. B.Obamanın hələ prezidentliyə namizədliyi dövründə ekspertlər tərəfindən ABŞ-Azərbaycan münasibətlərinin daha da inkişaf edəcəyi gözləntiləri olsa da, bu özünü çox da doğrultmamış, ilk illərdən etibarən iki ölkə arasında bir sıra problemlər özünü göstərmişdir. Belə ki, bəhs etdiyimiz dövrdə ABŞ-nin dəstəyi ilə Türkiyə və Ermənistan arasında münasibətlərin normallaşdırılmağa çalışılması ABŞ-Azərbaycan əlaqələrinə mənfi təsir göstərən əsas amillərdən biri olmuşdur. 2009-cu ilin 10 oktyabr tarixində ABŞ-nin vasitəçiliyi ilə Türkiyə və Ermənistana arasında Sürix şəhərində iki protokolun imzalanması Azərbaycan tərəfindən tənqid olunmuşdur. Eyni zamanda, Azərbaycan

Respublikasının Prezidenti İlham Əliyev həmin ildə İstanbul şəhərində keçirilən Sivilizasiyalar Alyansının sammitində iştirakdan imtina etmiş və Hillari Klintonun ABŞ Prezidenti Barak Obama ilə görüşmək üçün dəvətini qəbul etməmişdir [6, s.3055-3056]. Sürix protokolları sonradan nəticəsiz qalmışdır.

B.Obama administrasiyası dövründə ABŞ-Azərbaycan əlaqələrinin soyuqlaşmasının digər bir mühüm səbəbi isə ABŞ-nin Dağlıq Qarabağ probleminin həllinə dair sülh danışıqlarında aktiv rol oynamaması, zəif mövqe göstərməsi olmuşdur. B.Obamanın bu siyasi xətti seçməsi ABŞ-Azərbaycan münasibətlərinin inkişafına mənfi təsir göstərmişdir [7].

2010-cu il 24 sentyabr tarixində B.Obama və İ.Əliyevin Nyu-York şəhərində görüşü keçirilmişdir. Görüş zamanı iqtisadi, energetika, regional təhlükəsizlik və b. sahələrdə ABŞ və Azərbaycan arasında əməkdaşlığın əhəmiyyəti vurğulanmışdır. Beynəlxalq terrorizmə qarşı mübarizədə Azərbaycanın iştirakından bəhs edilmiş və yüksək qiymətləndirilmişdir. Həmçinin, hər iki ölkə prezidenti ABŞ və Azərbaycan münasibətlərinin gələcəkdə daha da inkişaf etdirmək arzusunda olduqlarını ifadə etmişdilər. Bu görüş iki ölkə əlaqələrinə müsbət təsir göstərmişdir [8].

B.Obamanın ikinci prezidentlik dövründə ABŞ-Azərbaycan münasibətlərində ilk prezidentlik dövründən daha çox inkişaf özünü göstərmişdir. Ümumiyyətlə, 2013-2017-ci illər ərzində ABŞ və Azərbaycan dövlət başçılarının, rəsmi səlahiyyətli nümayəndələrinin əhəmiyyət kəsb edən görüşləri keçirilmişdir. 2016-cı ilin aprel ayında Vaşinqtonda keçirilən dördüncü Nüvə Təhlükəsizliyi Sammitində B.Obama, İ.Əliyev və R.T.Ərdoğan da daxil olmaqla, ümumilikdə, 50-dən çox ölkə prezidenti iştirak etmişdir. Dördüncü Nüvə Təhlükəsizliyi Sammitinin keçirilməsinin əsas məqsədi isə nüvə terrorizminin qarşısını almaq və nüvə təhlükəsizliyinin əsas məsələlərini müzakirə etmək olmuşdur. Prezident İ.Əliyev çıxışı zamanı Azərbaycanın nüvə silahlarının yayılmamasına çox böyük əhəmiyyət verdiyini qeyd etmişdir [9].

Barak Obamadan sonra hakimiyyətə gəlmiş Donald Trampın prezidentliyi dövründə Azərbaycanla əlaqələrin və əməkdaşlığın inkişaf etdirilməsinə, iki ölkə arasında əvvəlki illərdə yaranmış problemlərin həllinə diqqət göstərilmişdir. D.Tramp ABŞ-Azərbaycan əlaqələrini "bir sıra maraqlar əsasında qurulmuş möhkəm əməkdaşlıq" kimi xarakterizə etmişdir. D.Tramp administrasiyası terrorizmə qarşı mübarizədə Azərbaycanla əməkdaşlığın əhəmiyyət kəsb etdiyini də vurğulamışdır [7].

D.Tramp administrasiyası dövründə ABŞ-Azərbaycan münasibətlərinin inkişafında əhəmiyyət kəsb edən hadisələrdən biri isə ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun Azərbaycana rəsmi səfəri olmuşdur. 2018-ci ildə baş vermiş C.Boltonun bu səfəri ABŞ üçün Azərbaycanın strateji əhəmiyyətini göstərmişdir. Eyni zamanda, C.Bolton Bakıda səfərdə olduğu zamanı Dağlıq Qarabağ probleminə dair ABŞ-nin Minsk qrupunun həmsədri kimi öhdəlikləri olduğunu və önəmli tədbirlər görüləcəyini də bildirmişdir [6, s.3058]. Bundan

əlavə, D.Tramp administrasiyası dövründə iki ölkə arasında əməkdaşlığın inkişaf etməsi nəticəsində 2018-ci ildə ABŞ-dən Azərbaycana təxmini 58,6 milyon dollar, 2019-cu ildə 42,9 milyon dollar həcmində hərbi yardım ayrılmışdır [10].

2018-ci il may ayının 30-da isə ABŞ Prezidenti D.Tramp beynəlxalq "Xəzər Neft və Qaz" sərgisinin 25 illik yubileyi münasibəti ilə Azərbaycan Prezidenti İ.Əliyevə təbrik məktubu göndərmişdir. D.Trampın bu məktubu ABŞ-Azərbaycan münasibətlərinin inkişafına dair bir nümunə hesab oluna bilər. Məktubda Azərbaycanın enerjisinin vacibliyini və regionda təhlükəsizlik gözləntilərini də vurğulamışdır [6, s.3057].

**ABŞ və Türkiyənin Gürcüstan siyasətinin oxşar və fərqli xüsusiyyətləri**

ABŞ-Gürcüstan münasibətlərinin tarixinə nəzər yetirsək görərik ki, 1992-2003-cü illərdə Gürcüstanda hakimiyyətdə olmuş Eduard Şevardnadzenin Qərbə, xüsusilə ABŞ-yə meyilli siyasəti iki ölkə əlaqələrinin gələcək inkişafına da mühüm təsir göstərmişdir. Lakin, B.Obama administrasiyası dövründə ABŞ-Azərbaycan münasibətlərində olduğu kimi ABŞ-Gürcüstan əlaqələrinin də nisbətən zəifləmişdir. Bunun əsas səbəblərindən biri kimi Obama administrasiyası dövründə ABŞ-nin xarici siyasətində əsas diqqətin Yaxın Şərq regionuna yönəldildiyini göstərmək olar.

2010-cu ildə Lissabonda NATO sammiti çərçivəsində iki ölkə başçılarının görüşü nəzərə alınmasa ABŞ Prezidenti Barak Obama və Gürcüstan Respublikasının Prezidenti Mixael Saakaşvili arasında ilk dəfə iki tərəfli rəsmi görüş B.Obamanın prezidentlik fəaliyyətinə başladıqdan təxmini üç il sonra keçirilmişdir [11, p. 8,12]. Belə ki, 2012-ci il 30 yanvar tarixində Ağ Evdə B.Obama və M. Saakaşvili arasında keçirilmiş bu görüş iki ölkə əlaqələrinə müsbət təsir göstərmiş və bir sıra mühüm məsələlər müzakirə olunmuşdur. Görüş zamanı B.Obama Gürcüstanın NATO-ya inteqrasiyasının ABŞ tərəfindən dəstəkləndiyini bildirmişdir. Bundan əlavə, görüşdə ABŞ və Gürcüstan arasında ticarət əlaqələrinin inkişaf etdirilməsindən də bəhs edilmişdir [12].

D.Tramp administrasiyası dövründə ABŞ-Gürcüstan əlaqələrində strateji əməkdaşlığın inkişaf etdirilməsinə çalışılmışdır. Hələ, B.Obama administrasiyası dövründə iki dövlət arasında imzalanmış Strateji Tərəfdaşlıq Xartiyasının yeni ABŞ prezidentinin dövründə genişləndirilməsinə diqqət göstərilmişdir. Ümumiyyətlə, ABŞ-Gürcüstan strateji əməkdaşlığı iki ölkə arasında dörd əsas sahəni əhatə etmişdir:

1. Müdafiə və təhlükəsizlik;
2. Demokratiya və idarəetmə;
3. İqtisadi, ticarət və enerji əməkdaşlığı;
4. Mədəni əməkdaşlıq.

2019-cu ilin iyun ayında, ABŞ və Gürcüstan arasında Strateji Tərəfdaşlıq Xartiyasının imzalanmasından on il sonra iki ölkənin rəsmi nümayəndələrinin iştirakı ilə

görüş keçirilmişdir. Görüşdə ABŞ və Gürcüstan Respublikasının son on ildə bir çox sahələrdə uğurlu əməkdaşlığından bəhs olunmuşdur.

2019-cu ilin sonlarında isə ABŞ Konqresinin Nümayəndələr Palatasının və Senatın üzvlərinin Gürcüstanda keçiriləcək parlament seçkiləri ilə əlaqədar Gürcüstan hökümətinə qarşı tənqidi məktublar göndərməsi iki ölkə münasibətlərinə mənfi təsir göstərmişdir [11, p.6, 16].

Türkiyənin də xarici siyasətində Gürcüstanın xüsusi yeri var və tədqiq edilən illərdə ABŞ-dən fərqli olaraq iki ölkə münasibətlərində daha çox inkişaf özünü göstərmiş, müxtəlif vaxtlarda iki ölkənin rəsmi nümayəndələri arasında görüşlər keçirilmişdir. Xüsusilə, Türkiyə və Gürcüstan arasında ticarət əlaqələri önəmli rol oynamışdır. 2007-ci ildən etibarən Türkiyə Gürcüstanın ən böyük ticarət tərəfdaşı hesab olunmuşdur. 2014-cü il 6 may tarixində Tiflis şəhərində Türkiyə, Gürcüstan və Azərbaycan prezidentlərinin ilk sammiti keçirilmişdir. 2019-cu ilin dekabr ayında isə Tiflisdə Türkiyə, Gürcüstan və Azərbaycan xarici işlər nazirlərinin səkkizinci görüşü keçirilmişdir [13].

Ümumiyyətlə, tədqiq edilən illərdə ABŞ və Türkiyənin Gürcüstan siyasətində oxşarlıqlar daha çoxdur, belə ki, hər iki ölkə mühüm geostrateji mövqeyə malik Gürcüstan Respublikası ilə bütün sahələrdə münasibətlərini inkişaf etdirməyə çalışmışlar. Lakin, 2009-2017-ci illər ərzində ABŞ-Gürcüstan əlaqələrindəki inkişaf ilə nisbətdə Türkiyə-Gürcüstan münasibətlərində daha çox inkişaf olduğunu qeyd etmək olar. ABŞ-də D.Tramp hakimiyyətə gəldikdən sonra isə Gürcüstanla əlaqələrdə daha çox inkişaf özünü göstərmişdir.

**ABŞ-nin Ermənistan siyasəti və Türkiyə Cümhuriyyəti ilə yaranan ziddiyyətlər**

B.Obama və D.Tramp administrasiyaları dövrü də daxil olmaqla, ümumiyyətlə, ABŞ-nin Ermənistan siyasəti ABŞ-Türkiyə münasibətlərinə çox mühüm təsir göstərmişdir. Bu əsasən mənfi təsir olmuş və iki ölkə arasında müxtəlif vaxtlarda gərginliklərin yaşanmasına səbəb olmuşdur. Bundan əlavə, ABŞ-də erməni lobbisinin fəaliyyəti ABŞ-nin həm Türkiyə, həm də Azərbaycanla olan münasibətlərinə təsirsiz keçməmişdir.

B.Obama administrasiyası dövründə, ABŞ-də erməni lobbisinin iki əsas məqsədi var idi. Bunlardan biri "erməni soyqırımı" iddiasının ABŞ Konqresində qəbul etdirilməsi, digəri isə ABŞ Nazirlərinin 2009-cu ilin aprel ayının 24-də keçiriləcək danışıqlarında "soyqırım" sözünü söyləmələri olmuşdur. Erməni lobbisinin müxtəlif cəhdlərinə baxmayaraq konqresdə "erməni soyqırımı"na aid qərar qəbul edilməmişdir. Eyni zamanda, 24 aprel tarixində ABŞ nazirləri danışıqlar zamanı "qətliam" sözünü işlətsələrdə, "soyqırım" sözünü ifadə etməmişdilər. B.Obamanın hələ prezidentliyə namizəd olduğu dövrdə erməni lobbisinə iddialarını tanıyacağına dair söz verməsi 24 aprel danışıqlarında onların gözləntilərini artırmışdır. Lakin, B.Obama

prezident seçildikdən sonra məsələyə digər mövqedən baxmış və bu fikirlərindən uzaqlaşmışdır. "Erməni soyqırımı" iddiasının Türkiyə-Ermənistan münasibətlərinə çox zərər verəcəyini bildirən B.Obama aprelin 24-də çıxışı zamanı Türkiyə-Ermənistan əlaqələrinin normallaşması üçün addım atılmasını istəmişdir. Qeyd etmək lazımdır ki, əgər erməni lobbisinin bu məqsədləri Obama administrasiyası tərəfindən həyata keçirilsəydi, təbii ki, ABŞ-Türkiyə münasibətlərinə olduqca mənfi təsir göstərəcəkdi [14, s.88]. Ümumiyyətlə, Obama administrasiyası dövründə Dağlıq Qarabağ probleminin həllindən daha çox Türkiyə-Ermənistan əlaqələrinin normallaşmasına səy göstərilmişdir.

2011-ci ilin 23 aprel tarixində isə ABŞ Prezidenti B.Obama türklər ilə ermənilər arasında ortaq tarixlərinin acılı dövrü ilə əlaqədar münaqişədə erməni fikirlərini əks etdirən yanaşmanın irəli sürüldüyü mesaj yayınlamışdır. Tarixi faktların təhrif edildiyi bu mesajın yayımlanmasından sonra Türkiyə hökuməti bu bəyanatı qınadıqlarını və təəssüf etdiklərini bildirmişdilər. Eyni zamanda, Türkiyə Cümhuriyyəti bu bəyanatla əlaqədar qeyd etmişdir:

*"Bizim ABŞ-dən gözlədiyimiz Türkiyə ilə Ermənistan arasındakı normallaşma dövrünü və tarixi keçmişə dair məsələləri çətinləşdirmək əvəzinə, asanlaşdırmaqdır. Bu formada tərəf tutan fikirlər sülhə və xalqların ortaq gələcəyinə mənfi təsir etməkdədir"* [15].

ABŞ-nin 45-ci prezidenti D.Trampın hakimiyyət illəri (2017-2021) həm ABŞ-nin Ermənistan siyasətinin Türkiyə ilə olan əlaqələrinə təsiri baxımından, həm də Tramp administrasiyasının Ermənistanın qondarma "soyqırımı"na münasibəti baxımından əhəmiyyətli dövrlərdən biri hesab oluna bilər. Dövrün ən əsas və ABŞ-Türkiyə münasibətlərinə mənfi təsir göstərən hadisələrindən biri isə qondarma "erməni soyqırımı"nın ildönümündə, daha dəqiq 2018-ci ilin 25 aprel tarixində D.Trampın 1915-ci il hadisələri zamanı 1.5 milyon erməninin "qətlə yetirilməsinə və ya deportasiya edilməsinə" dair bəyanatı olmuşdur.

D.Trampın 25 aprel yazılı bəyanatında qeyd olunmuş yalan ifadələr Türkiyə hökuməti tərəfindən qəbul edilməmiş və Tramp administrasiyasından Osmanlının bütün xalqlarının böyük acılar çəkdiyi bu dövrün ədalətli olaraq qiymətləndirilməsi tələb edilmişdir. Türkiyə hökuməti bildirmişdir:

*"D.Tramp tərəfindən irəli sürülən bəyanatın bu məsələyə dair beynəlxalq hüquqi normalar çərçivəsində qalmasını və "soyqırım" iddialarının söylənməsinin ağlabatan bir hərəkət olduğunu fikirləşmirik"* [16].

ABŞ və Türkiyə münasibətlərində gərginliyə səbəb olan bu hadisə iki il sonra demək olar ki, eynilə təkrar olunmuşdur. Belə ki, 2020-ci ilin aprel ayında D.Tramp 1915-ci il hadisələrini "böyük fəlakət" adlandırmış və Türkiyə hökuməti bu ifadəyə etiraz etmişdir. Beləliklə, ABŞ Prezidenti D.Tramp Ermənistan siyasətində, əsasən, qondarma "erməni soyqırımı"na diqqət yetirmiş və onun bu hadisəyə dair irəli sürdüyü fikirlər ABŞ-Türkiyə münasibətlərinə mənfi təsir göstərmişdir.

**44 günlük Vətən Müharibəsində ABŞ və Türkiyə Cümhuriyyətinin mövqeyi**

27 sentyabr 2020-ci ildə Azərbaycan və Ermənistan arasında başlayan İkinci Qarabağ müharibəsi 10 noyabr tarixində atəşkəs bəyanatının imzalanması ilə başa çatmışdır. 44 gün davam edən müharibə Azərbaycanın tarixi qələbəsi ilə başa çatmış və müharibənin nəticəsi Cənubi Qafqazın hərbi-siyasi həyatı üçün mühüm əhəmiyyət kəsb etmişdir [17].

Vətən Müharibəsi dövründə ABŞ, əsasən, bitərəf mövqe tutmağa çalışmışdır. İkinci Qarabağ müharibəsinin ilk günlərində brifinqdə çıxış edən D.Tramp SSRİ-nin iki keçmiş respublikası arasında baş verən bu müharibəni ABŞ-nin dayandırmağa çalışacağını bildirmişdir [18]. Lakin, 2020-ci ilin oktyabr ayının 2-də Vaşinqtonda altımışdan çox nümayəndənin iştirak etdiyi Senat və Nümayəndələr Palatasının liderləri ABŞ-nin dövlət katibi M.Pompeonu “Azərbaycan və Türkiyənin Ermənistana və Artsaxa (Dağlıq Qarabağ) hücumunu” sərt şəkildə qınamağa və qətiyyətli addımlar atmağa çağırmışdılar. Xüsusilə, burada iştirak edən Amerika Erməni Milli Komitəsinin (ANCA) nümayəndələri ABŞ tərəfindən Azərbaycana edilən hərb yardımın dayandırılmasını və Türkiyə Cümhuriyyətinə qarşı sanksiyaların tətbiq edilməsinin lazım olduğunu bildirmişdilər. Eyni zamanda, bir çox senatorlar çıxışlarında Türkiyənin müharibədə fəal iştirakdan geri çəkilməsini, əks təqdirdə, ABŞ-dən Türkiyəyə edilən bütün hərbi texnika satışının dayandırılmasını və ABŞ-nin diplomatik əlaqələrdən istifadə edərək müharibəni dayandırmasını, atəşkəs əldə etməsini tələb etmişdilər [19]. Lakin onların bu tələbləri qəbul edilməmişdir.

ABŞ-Azərbaycan münasibətlərinin inkişafına mühüm təsir göstərən hadisələrdən biri məhz İkinci Qarabağ müharibəsi bitdikdən sonra baş vermişdir. Belə ki, 18 dekabr 2020-ci il tarixində ABŞ-nin Xəzər Siyasi Mərkəzi (CPC) və Azərbaycanın Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi tərəfindən beynəlxalq vebinar təşkil edilmişdir. “Azərbaycan – ABŞ münasibətləri: Seçkilər və İkinci Qarabağ müharibəsindən sonrakı proseslər” adlanan vebinarda iki ölkə əlaqələrinin inkişafına mühüm təsir göstərə biləcək bir sıra məsələlər müzakirə edilmişdir. Vebinarda İrs Fondu (Heritage Foundation) yanında Xarici Siyasət Araşdırmaları üzrə Allison Mərkəzinin direktoru Lyuk Koffi çıxış edərək Gəncə şəhərində ABŞ konsulluğunun açılmasını və ABŞ-nin rəsmi şəxsləri tərəfindən Azərbaycana daha çox səfərlərin təşkil edilməsinin vacib olduğunu bildirmişdir [20].

İkinci Qarabağ müharibəsi başlanan gündən etibarən qardaş Türkiyə Cümhuriyyəti Azərbaycan Respublikasının ədalətli mübarizəsini tam dəstəkləmiş və Azərbaycanın yanında olduğunu açıq şəkildə elan etmişdir. Müharibə başlandıqdan sonra Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətinin Bakıya səfər etməsi çox mühüm əhəmiyyət kəsb etmişdir. Azərbaycan və Türkiyə arasında əməkdaşlıq İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra sülhməramlıların bölgəyə yerləşdirildiyi dövrdə də davam etmişdir. Ümumiyyətlə, müharibə dövründə türk ictimaiyyəti daim Azərbaycanı dəstəkləmiş və Azərbaycanın qələbə qazanması Türkiyə vətəndaşlarını çox sevindirmişdir [17]. Bundan əlavə,

İkinci Qarabağ müharibəsində Azərbaycanın Türkiyə Cümhuriyyətindən aldığı pilotsuz uçuş aparatlarından (PUA) geniş şəkildə istifadə olunmuşdur.

**Nəticə**

2009-2020-ci illərdə ABŞ-nin Cənubi Qafqaz siyasəti və bu çərçivədə Türkiyə Cümhuriyyəti ilə olan münasibətləri əhəmiyyət kəsb etmişdir. Soyuq müharibənin başa çatmasında sonra ABŞ-nin Cənubi Qafqaza dair siyasətində müəyyən dəyişikliklər baş vermiş və region ABŞ-nin xarici siyasət strategiyasında daha mühüm yer tutmuşdur. SSRİ-nin dağılmasından sonra isə ABŞ Cənubi Qafqazda müstəqillik əldə etmiş hər üç dövlətin (Azərbaycan, Gürcüstan və Ermənistan) müstəqilliyini rəsmi olaraq tanımış və həmin vaxtdan etibarən bu ölkələrlə əlaqələrini inkişaf etdirməyə çalışmışdır. Eyni zamanda, ABŞ Cənubi Qafqazda baş verən münaqişələrin həllinə də diqqət göstərmişdir.

ABŞ-nin Cənubi Qafqaz siyasətində Türkiyə Cümhuriyyətinin də daim xüsusi rolu olmuşdur. ABŞ Cənubi Qafqaz bölgəsində baş verən münaqişələrin həlli zamanı, həmçinin regionda sülhün və təhlükəsizliyin təmin edilməsində Türkiyə ilə əməkdaşlıq etmişdir.

Ümumiyyətlə, ABŞ-nin Cənubi Qafqaz siyasətini üç hissəyə ayırmaq olar:

1. ABŞ-nin Cənubi Qafqazda maraqları və prioritetləri;
2. ABŞ-nin Cənubi Qafqaz regionundakı energetika və iqtisadi maraqları;
3. Cənubi Qafqaz dövlətlərinin ərazi bütövlüyünün və müstəqilliyinin dəstəklənməsi [21].

B.Obama və D.Tramp administrasiyaları dövründə ABŞ-nin Cənubi Qafqaz siyasəti isə nisbətən bir-birindən fərqlənmişdir. Belə ki, B.Obamanın prezidentlik dövründə əsas diqqətin Yaxın və Orta Şərq regionuna yönəlməsi Cənubi Qafqaz regionu da daxil olmaqla bir sıra bölgələrlə münasibətlərin soyuqlaşmasına səbəb olmuşdur. Xüsusilə, Cənubi Qafqazın əsas münaqişələrindən biri olan Dağlıq Qarabağ probleminin həll edilməsinə dair keçirilmiş danışıqlarda fəal rol oynamamışdır. Əksinə, B.Obama administrasiyası Türkiyə və Ermənistan arasında əlaqələrin normallaşdırılmasına cəhd göstərmişdir. D.Tramp ABŞ Prezidenti seçildikdən sonra isə Cənubi Qafqaz regionuna daha çox diqqət göstərməyə başlamışdır. D.Tramp administrasiyası Cənubi Qafqazın hər üç ölkəsi ilə müxtəlif sahələrdə əməkdaşlıq etməyə çalışmışdır.

2020-ci il sentyabr ayının 27-dən noyabr ayının 10-na qədər baş vermiş İkinci Qarabağ müharibəsində D.Tramp administrasiyası bitərəf mövqe saxlamağa çalışsa da, bəzi vaxtlarda ABŞ-də Ermənistanın tərəfini tutan çıxışlar da olmuşdur. Bu məsələdə, əlbəttə ki, ABŞ-də fəaliyyət göstərən erməni lobbisinin böyük təsiri var idi. İkinci Qarabağ müharibəsi başladıqdan dərhal sonra ABŞ Dövlət katibinin birinci müavini S.Biqan həm Azərbaycanın xarici işlər naziri C.Bayramovla, həm də Ermənistanın xarici işlər naziri Z.Mnatsakanyanla əlaqə saxlayaraq hər iki ölkəni hərbi əməliyyatları dayandırmağa çağırmışdır. Bundan əlavə, 44 günlük Vətən Müharibəsi dövründə erməni lobbisi, əsasən, öz aqressiv hərəkətləri ilə yaddaşlar-

da qalmışdır. Belə ki, 2020-ci ilin oktyabr ayının əvvəllərində erməni diaspor nümayəndələri Vaşinqtonda, Nyu-Yorkda, San-Fransiskoda, Los-Ancelesdə və başqa ABŞ şəhərlərində etiraz yürüşləri keçirmiş və Azərbaycan nümayəndəliklərinə hücumlar etmişlər [22]. İkinci Qarabağ müharibəsi bitdikdən sonra ABŞ-Azərbaycan münasibətlərində daha çox inkişaf baş vermişdir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Mustafayeva L.M. Cənubi Qafqaz: Dövlətlər arasında yeni mübarizə meydanı. // Azərbaycan Elm Mərkəzi (AEM), ELMİ İŞ beynəlxalq elmi jurnalı, 15 (6), 2021, s. 50-53

2. Nəsibov E.M. ABŞ və Türkiyənin Qafqaz geosiyasi regionunda strateji maraqları və Azərbaycan Respublikası. Bakı: "Çıraq", 2006, -311 s.

3. Baban I., Shiriyev Z. The U.S. South Caucasus strategy and Azerbaijan. // Turkish policy quarterly, 9 (2), 2010, pp. 93-103

4. https://www.state.gov/u-s-relations-with-azerbaijan/ (27.08.2021) / U.S. Relations with Azerbaijan. U.S. Department of State. Müraciət tarix: 16.04.2024

5. https://2001-2009.state.gov/p/eur/rls/rm/96683.htm (10.12.2007) / U.S.-Turkey-Azerbaijan: a Strategic Partnership. U.S. Department of State. Archive / Information released online from January 20, 2001 to January 20, 2009. Müraciət tarixi: 17.04.2024

6. Öztarsu M.F. A Pragmatic Policy Case: US-Azerbaijan Relations. // MANAS Sosyal Araştırmalar Dergisi, 8 (3), 2019, s. 3046-3063

7. https://azertag.az/en/xeber/guivami_rahimli_the_us_should_support_its_strategic_interests_in_the_region_rather_than_the_armenian_diaspora_interests-2928937 (20.02.2024) / The US should support its strategic interests in the region rather than the Armenian diaspora interests. AZƏRTAC / The Azerbaijan State News Agency. Müraciət tarixi: 18.04.2024

8. https://obamawhitehouse.archives.gov/the-press-office/2010/09/24/read-out-president-obamas-meeting-with-azerbaijani-president-ilham-aliye (24.09.2010) / Read-out of President Obama's meeting with Azerbaijani President Ilham Aliyev. The White House / Office of the Press Secretary. Müraciət tarixi: 18.04.2024

9. https://president.az/az/articles/view/18257 (01.04.2016) / İlham Əliyev IV Nüvə Təhlükəsizliyi Sammitində iştirak edib. Müraciət tarixi: 19.04.2024

10. https://jamestown.org/program/the-pallone-amendment-and-us-military-assistance-to-azerbaijan-in-context/ (11.08.2021) / The Pallone Amendment and US Military Assistance to Azerbaijan in Context. Eurasia Daily Monitor, 18 (128). Müraciət tarixi: 19.04.2024

11. Smolnik F. The Strategic Partnership between Georgia and the United States: Vision Wanted. SWP Research Paper 15, Berlin, December 2020, -33 p.

12. https://www.voanews.com/a/obama-praises-georgia-as-model-of-democracy-138359529/171001.html (29.01.2012) / Obama Praises Georgia as Model of Democracy. Müraciət tarixi: 22.04.2024

13. https://www.mfa.gov.tr/turkiye-gurcistan-siyasi-iliskileri.tr.mfa / Türkiye – Gürcistan siyasi ilişkileri. Türkiye Cumhuriyeti Dışişleri Bakanlığı. Müraciət tarixi: 23.04.2024

14. Kasım K. Türkiye-Ermenistan ilişkileri: protokollere giden süreç ve sonrası. // Ermeni Araştırmaları / Dört aylık Tarih, Politika ve Uluslararası İlişkiler dergisi. 10. Yıl Özel Sayısı, Sayı 37-38, 20 Nisan 2011, s.83-100

15. https://www.mfa.gov.tr/no_112_-24-nisan-2011_-abd-baskani-obama-tarafindan-yapilan-aciklama-hk_.tr.mfa (24.04.2011) / № 112. ABD Başkanı Obama tarafından yapılan açıklama Hk. Türkiye Cumhuriyeti Dışişleri Bakanlığı. Müraciət tarixi: 24.04.2024

16. https://www.mfa.gov.tr/no_-119_-abd-baskani-trump-in-1915-olaylarina-iliskin-aciklamasi-hk.tr.mfa (25.04.2018) / № 119. ABD Başkanı Trump'ın 1915 olaylarına ilişkin açıklaması Hk. Türkiye Cumhuriyeti Dışişleri Bakanlığı. Müraciət tarixi: 27.04.2024

17. Hacıyev S. İkinci Qarabağ Müharibəsi və Azərbaycan-Türkiyə münasibətləri. "Geostrategiya" jurnalı, 23.02.2021. https://www.geostrategiya.az/news.php?id=130

18. https://www.reuters.com/article/us-armenia-azerbaijan-trump-idUSKBN26I124/ (28.09.2020) / Trump says U.S. will seek to stop violence between Armenia, Azerbaijan. Reuters. Müraciət tarixi: 20.04.2024

19. https://katherineclark.house.gov/2020/10/armenian-weekly-senate-and-house-leaders-to-secretary-of-state-pompeo-cut-military-aid-to-azerbaijan-sanction-turkey-for-ongoing-attacks-against-armenia-and-artsakh (02.10.2020) / Armenian Weekly: Senate and House Leaders to Secretary of State Pompeo: Cut Military Aid to Azerbaijan; Sanction Turkey for Ongoing Attacks Against Armenia and Artsakh. Katherine Clark / 5th District of Massachusetts. Müraciət tarixi: 21.04.2024

20. https://azertag.az/xeber/Azerbaycan_ABS_munasibetleri_ve_II_Qarabag_muharibesinden_sonraki_proseslere_dair_beynelxalq_vebinar_kechirilib-1669001 (18.12.2020) / Azərbaycan-ABŞ münasibətləri və II Qarabağ müharibəsidən sonrakı proseslərə dair beynəlxalq vebinar keçirilib. Müraciət tarixi: 21.04.2024

21. https://xalqqazeti.az/az/siyaset/164881-abs-cenubi-qafqaz-prioritetleri-ziddiyyetler (10.02.2024) / ABŞ-ın Cənubi Qafqaz prioritetləri: ziddiyyətlər və risklər. "Xalq qəzeti". Müraciət tarixi: 28.04.2024

22. https://www.virtualkarabakh.az/az/post-item/52/2871/ikinci-qarabag-muharibesi.html / İkinci Qarabağ müharibəsi. "Virtual Qarabağ" İnformasiya-Kommunikasiya Texnologiyaları Mərkəzi. Müraciət tarixi: 28.04.2024